**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# K.SİMONOV VƏ E.HEMİNQUEYİN HƏRBİ PUBLİSİSTİKASINDA PASİFİST İDEYALAR

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (rus ədəbiyyatı)

Elm sahəsi: Filologiya

İddiaçı: **Nəcibə Tariyel qızı Mirzəyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Ədəbiyyat nəzəriyyəsi və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Naidə Caməli qızı Məmmədxanova**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Fikrət Çingiz oğlu Rzayev**

filologiya elmləri doktoru, professor
**Rafiq Manaf oğlu Novruzov**

filologiya üzrə fəlsəfə doktoru
**Nigar Şahmar qızı Babazadə**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Slavyan Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.13 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ______ filologiya elmləri doktoru, professor
**Fikrət Fətiş oğlu Cahangirov**

Dissertasiya şurasının elmi katibi: ______ filologiya üzrə fəlsəfə doktoru
**Suad Arif qızı Əfəndiyeva**

Elmi seminarın sədri: ______ filologiya elmləri doktoru, professor
**Bella Sirac qızı Musayeva**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dünya ədəbiyyatı tarixində elə ədiblər vardır ki, onların yaradıcılığı sırf milli deyil, eləcə də ümumbəşəri xarakter daşıyır. Çünki bu yazıçıların yaradıcılıqları bir tərəfdən müasir dövrü əks etdirir, digər tərəfdən isə, ədəbiyyat və mədəniyyətin daha da inkişaf etdirilməsi perspektivlərini müəyyən edir. Belə yazıçılar sırasına rus ədəbiyyatının görkəmli nümayəndəsi Konstantin Simonov, amerikalı yazıçı və jurnalist Ernest Heminquey daxildir.

Hər iki ədibin irsi böyük və çoxşaxəlidir, lakin biz öz diqqətimizi onların yaradıcılığında önəmli yer tutan hərbi publisistikanın müqayisəli təhlili üzərində cəmləşdirmişik. K.Simonov və E.Heminquey XX əsrin ən ağır hərbi əməliyyatlarının – 1914-1918-ci illərin I Dünya müharibəsi və 1941-1945-ci illər müharibəsinin canlı şahidi olmuşlar. Tədqiqat işində K.Simonov və E.Heminqueyin hərbi publisistikasında pasifist ideyaların səciyyəvi xüsusiyyətlərini üzə çıxarmağa cəhd göstərmişik. Eyni zamanda dissertasiyanın üçüncü fəsli bütövlükdə hər iki yazıçı və Azərbaycan ədiblərinin hərbi publisistikasının müqayisəli təhlilinə həsr olunmuşdur.

K.Simonov və E.Heminqueyin, eləcə də Azərbaycan şair və yazıçılarının hərbi publisistikasının səciyyəvi xüsusiyyətlərin araşdırılması, onların məsələyə yanaşma tərzlərinin təhlili tədqiqatın əsasını təşkil edir.

Pasifizm kütləvi dünya hərəkatı kimi böyük sosial-siyasi əhəmiyyətə malikdir. Fərqli ölkələrə aid olmalarına baxmayaraq K.Simonov, E.Heminquey və bir sıra Azərbaycan jurnalistləri, şair və yazıçılarının hərbi publisistikasında pasifist ideyalarının təbliğ olunması vacib amillərdəndir. Müasir dövlətlərarası münasibətlərin əsasını hələ də təhlükəsizliyin möhkəmlənməsi və bütövlükdə xarici siyasi aləmdə sülhün qorunması təşkil edir. Bu baxımdan K.Simonov və E.Heminqueyin hərbi publisistikasında pasifist ideyaların tədqiq olunması Azərbaycan filologiya elmi üçün maraq kəsb edir.

Yuxarıda qeyd olunanlar seçilmiş tədqiqat mövzusunu aktual və zamanında hesab etməyə imkan verir.

Müraciət etdiyimiz mövzu filologiya elmində yalnız qismən xüsusi tədqiqat obyekti olmuşdur. Birinci və İkinci Dünya müharibələri dövrünün bədii ədəbiyyatı həm janr, həm də mövzu baxımından kifayət qədər tam həcmdə öyrənilmişdir. Lakin rus və Amerika yazıçılarının hərbi publisistikası tənqidi ədəbiyyatda müəyyən dərəcədə az işıqlandırılmışdır.

Məsələn, K.Simonovun yaradıcılığı haqqında M.Lebedevanın[1] monoqrafiyasında kiçik bir bölmə vardır. Yazıçının publisistik janrı haqqında İ.Kuzmiçovanın[2] tədqiqatında qısaca qeyd olunmuşdur. A.Juravlyovanın, A.Plotkinin, A.Boquslavskinin və V.Deyevin[3] və digər alimlərin kəskin polemik monoqrafiyaları müəyyən maraq doğurur. Simonovun hərbi publisistikasının tədqiqində S.Fradkinanın (1975) iri həcmli əsəri nəşr olundu.

Heminqueyin hərbi publisistikasının şərhi məsələsi daha mürəkkəbdir. Yazıçının yaradıcılığı üzrə xüsusi işlərdən aşağıdakıları sadalamaq olar: M.Qaysmar "Amerika müasirləri", B.A.Gilenson "XX əsrin 30-cu illərinin Amerika ədəbiyyatı"[4], B.N.Bobrova "Amerika ədəbiyyatında romantizm".

E.Heminqueyin iki cilddən ibarət seçilmiş əsərlərində yazıçının hərbi publisistikası haqqında yalnız qısa məlumatlar vardır. Rus dilində "Köhnə qəzetçi yazır..." adlı kitab nəşr olunmuşdur. Burada demək olar ki, amerikalı yazıçının bütün hərbi publisistikası toplanmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın əsas obyekti K.Simonov, E.Heminquey və Azərbaycan yazıçılarının hərbi-publisistik əsərləridir. Dissertasiya işinin predmetini K.Simonov

---

[1] Лебедева, М. Русская советская литература периода Великой Отечественной войны / М.Лебедева. – Москва: Художественная литература, – 1989. – 388 с.

[2] Кузьмичёва, И. Жанры русской литературы военных лет / И.Кузьмичева. – Москва: Художественная литература, – 1987. – 311 с.

[3] Деев А. Поэзия Самеда Вургуна. Партийный архив, фонд 1, опись 59, документ 86, связка 3, коробка 10, л. 40-41.

[4] Гиленсон, Б.А. Эрнест Хемингуей / Б.А.Шиленсон. – Москва: Просвещение, – 1991. – 192 с.

və E.Heminqueyin hərbi publisistikasında pasifist ideyaların tədqiqi, eyni zamanda rus, Amerika və Azərbaycan hərbi publisistikasının müqayisəli təhlili təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi vahid ədəbi axında hərbi publisistikanın əhəmiyyətinin müəyyən edilməsidir. Tənqidi təhlilin diqqət mərkəzində Simonov, Heminquey və bir sıra Azərbaycan şair-yazıçılarının məqalə və oçerkləri dayanır. Qarşıya qoyulan məqsəd aşağıdakı bəzi vəzifələrin müəyyənləşdirilməsini və həllini tələb edir:

- “Hərbi publisistika” anlayışının terminoloji cəhətdən əsaslandırılmış tərifini vermək;
- hərbi jurnalistikanı vahid bir janrın xüsusi bir hissəsi baxımından xarakterizə etmək;
- müharibə illərinin ümumi prosesində tənqidi publisistikanın rolu, əhəmiyyəti və yerini müəyyən etmək;
- K.Simonov, E.Heminquey, azərbaycanlı şair və yazıçılarının yaradıcılığının səciyyəvi fərdi xüsusiyyətlərini göstərmək;
- Rusiya, Amerika və Azərbaycan söz ustalarının yaradıcı irsindən götürülmüş konkret nümunələrlə hərbi publisistikanın ətraflı müqayisəli təhlilini aparmaq.

**Tədqiqat metodları.** Hazırki dissertasiya işində K.Simonov, E.Heminquey və təhlil üçün seçilmiş azərbaycanlı şair və yazıçıların hərbi publisistikasının janr müxtəlifliyinin daha dərindən əks etdirilməsi məqsədilə müqayisəli təhlil metodundan istifadə olunmuşdur. Öz növbəsində, tipoloji təhlil metodu, bir tərəfdən, müəlliflərə gələcək nəsillər üçün lazımi nəticələr çıxarmaq və ümumiləşdirmələr aparmağa kömək edən həmin müharibə xatirələrinə olan tələbat səviyyəsini müəyyən etməyə imkan vermişdir. Digər tərəfdən isə eyni dövrə, lakin müxtəlif millətlərə mənsub olan adları qeyd olunan yazıçıların publisistik janrda yazılmış əsərlərinin həm kəmiyyət, həm də keyfiyyət baxımından səciyyəvi xüsusiyyətlərini göstərməyə kömək olmuşdur. Bundan əlavə, hərbi-publisistik janrın bəzi nəzəri anlayışlarının açılmasına kömək edən filoloji şərh üsulundan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Milli mentalitetin xüsusiyyətləri, xalq adət-ənənələrinin xarakteri və istiqaməti dünya kütləvi pasifist hərəkatına müxtəlif münasibətlər diktə edir. Bu aksiomatik vəziyyətlə əlaqədar olaraq K.Simonov və E.Heminqueyin hərbi publisistikasında da bütün bunlar müxtəlif formalarda öz əksini tapmışdır. SSRİ-də ümumilikdə pasifizmə münasibət nəinki birmənalı deyildi, hətta ona müəyyən mənada şübhə ilə yanaşılırdı. ABŞ-da isə pasifizm "namuslu vətəndaşın" və qabaqcıl söz ustadının mükəmməl məqbul keyfiyyəti kimi şərh olunurdu. Daha çox vətənpərvər kimi Simonov, pasifist kimi amerikalı Heminquey çıxış edir.

2. Keçmiş sovet ədəbiyyatşünaslığı E.Heminqueyin hərbi publisistikasını (o cümlədən onun bədii yaradıcılığını da) əksər hallarda bir qədər sadələşdirilmiş şəkildə şərh edərək, onu əsasən qərb ideologiyasının, sovet adamının dünyagörüşünə uyğun gəlməyən, qərb ideoloji norma və fərziyyələrinin təbliğatçısı kimi göstərirdi. Lakin sovet dövrünün həmin elmi tədqiqatlarında obyektiv olaraq partiyanın zərərli "sosial sifarişlərindən" təmizlənməyə çalışan, ehkamçılıqdan uzaq olan qabaqcıl müəlliflər hər iki müharibə dövründə Heminqueyin publisistik çıxışlarının qəti şəkildə müharibə əleyhinə olmasını qeyd edirdilər.

3. K.Simonov, İ.Erenburq, A.Surkov, A.Tolstoy və digər rus yazıçılarının hərbi mövzuya olan yanaşma tərzi S.Vurğun, M.Ordubadi, M.Hüseynov və digərlərinin publisistikaları ilə bir ahəng təşkil edirdi. Bunun əsas səbəbi ondan ibarət idi ki, onların bütün yaradıcılığını vahid mənəvi təməl – dünya kütlələrinin şüurundan faşist ideologiyasının tamamilə və qəti surətdə çıxarılmasına istiqamətlənmək birləşdirirdi. Beləliklə, Heminqueyin hərbi publisistikasına formal şəkildə də olsa zahiri təsir göstərən bir sıra Avropa partiyalarının proqram göstərişlərindən tamamilə asılı olmayan pasifist ideyaları getdikcə daha aydın şəkildə vətənpərvərlik çalarları almağa başlayırdı.

**Tədqiqatın elmi yeniliyi.** Hazırki dissertasiya işi məqalələr, oçerklər, qeydlər, yazışmalar, reportajların əsasında hərbi publisistikanın vahid, sistematik və kompleks şəkilli tədqiqində ilk cəhdlərdən biridir. Təqdim olunmuş işin orijinallığı və yeniliyi ilk

növbədə problemin qoyuluşu, seçilmiş materialın əsas seçim və qiymətləndirmə prinsipləri ilə müəyyən edilir. İlk dəfə olaraq dissertasiya işində K.Simonov, E.Heminquey və bir sıra azərbaycanlı şair-yazıçıların yaradıcılığı timsalında hərbi publisistikanın əsas xüsusiyyətlərinin üzə çıxarılmasında struktur semiotik yanaşma tətbiq edilmişdir. Bu o deməkdir ki, seçilmiş publisistik mətnlərdə əsas diqqət daha çox elementlərin özünə deyil, qəhrəmanlarla müəllif arasındakı daxili münasibətlərə yönəldilmişdir. Bu səbəbdən, məqalə və ya oçerklərdəki gizli strukturlar daha çox əhəmiyyətə malikdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. XX yüzilliyin rus, Amerika və Azərbaycan ədəbiyyatında "hərbi publisistika" nəzəriyyəsi bu anlayışın birmənalı şəkildə şərh olunmaması ilə əlaqədar olaraq tənqidə məruz qalmışdı. Hərbi publisistikanın nəticə etibarilə hərbi istiqamətinin ayrı-ayrı daxili komponentlərini təsvir etmək üçün ilk olaraq "publisistika" anlayışını müəyyən etmək lazım idi. İlk növbədə tarixi kataklizmlərin – iki böyük müharibənin nəticəsi kimi meydana gələn janr xüsusiyyətlərinin müxtəlifliyi bizdə daha dəqiq terminoloji aparatın işlənməsi zərurətini yaratdı. Belə ki, burada müəyyən nəzəri əhəmiyyətə malik olan bəzi hərbi, məişət detalları, Qərbdəki siyasi partiyalar və qrupların vəzifələri və s. dəqiqləşdirilir.

Dissertasiya işinin praktiki əhəmiyyəti ondan ibarətdir ki, işin əsas elmi müddəaları və nəticələri XX əsr rus, Amerika və Azərbaycan ədəbiyyatı janrlarının nəzəri cəhətdən öyrənilməsi prosesində istifadə oluna bilər. Bundan əlavə, respublikanın ali məktəblərində hərbi publisistikanın əsas fənnin – sənədli nəsrin tərkib hissəsinə daxil edilərək filoloji və tarix fakültələrində mühazirə dərslərində istifadəsini tövsiyə etmək olar. Seçilmiş mövzu həmçinin, XX əsr rus, Amerika və Azərbaycan ədəbiyyatı üzrə dərslik və dərs vəsaitlərinin tərtib edilməsində zəruri ola bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları öz əksini Ədəbiyyat nəzəriyyəsi və dünya ədəbiyyatı kafedrasının iclaslarında, beynəlxalq konfranslardakı çıxış və məruzələrdə, habelə elmi məcmuələrdə dərc edilmiş məqalələrdə tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Slavyan Universitetinin Ədəbiyyat nəzəriyyəsi və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 8 səhifə, 15834 işarə, I fəsil – 53 səhifə, 107080 işarə, II fəsil – 45 səhifə, 90647 işarə, III fəsil – 30 səhifə, 60894 işarə, nəticə – 4 səhifə, 7679 işarə təşkil edir. Dissertasiyanın ümumi həcmi isə 153 səhifə, 282134 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, metodları təyin edilir, mövzunun öyrənilmə dərəcəsi səciyyələndirilir, dissertasiyanın elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti, onun əsas müddəalarının aprobasiyası təqdim olunur.

Birinci fəsil **"Hərbi publisistikanın xüsusiyyətləri"** adlanır və üç paraqrafdan ibarətdir.

***"Hərbi publisistika və yazıçılar"*** adlanan birinci paraqrafda qeyd edilir ki, publisistika yalnız bilavasitə əbədəbiyyatşünaslıq kontekstində deyil, həm də sosiologiya, tarix və jurnalistika sahəsində də hərtərəfli öyrənilən mürəkkəb çoxşaxəli anlayışdır (prosesdir, məhfumdur). Hərbi publisistikanın ən çox öyrənilən aspekti məhz filoloji aspektdir. Görkəmli rus (K.Simonov, İ.Erenburq, A.Tolstoy, N.Tixonov) və Amerika (E.Hemiquey, D.Lourens, O.Xaksli, U.Nelson, T.Brambek) ədibləri əsasən, hərbi publisistika janrında işləyirdilər. Bu təbii haldır, çünki söz ustaları dünya tarixində ən ağır hərbi kataklizmlərdən keçməli olmuşdular. 1914-1918-ci illərin I Dünya müharibəsi Heminqueyi təsiri altına almışdı. K.Simonov 1941-1945-ci illər müharibəsinin sınaqlarından keçmişdi. Diqqət mərkəzimizdə olan hər iki yazıçı öz məqalə, oçerk, rəy, müxtəlif kütləvi çıxışlar və reportajlarında ilk növbədə özlərinin şahidi və döyüşçüsü olduqları "görünən cəbhə"ni təsvir edirdilər.

Heminqueyin iştirakçısı olduğu I Dünya müharibəsi nə xalq-azadlıq müharibəsi, nə də hərfi mənada hər iki tərəfin apardığı işğalçı müharibə idi. "*Bu müharibə mövcud quruluşa, nəsillərə və bütövlükdə nəyin bahasına olursa olsun "əldə etmək" hərisliyi ilə pozulmuş cəmiyyətə münasibəti ifadə edirdi. O, insanın və yazıçının "maşın əsri" adlandırılan sivilizasiyaya münasibətinin təzahürü idi*"[5].

K.Simonovun iştirakçısı olduğu Böyük Vətən müharibəsi Sovet xalqı üçün azadlıq müharibəsi, əks tərəf isə təcavüzkar və işğalçı idi. I Dünya müharibəsindən fərqli olaraq, burada qələbə, demək olar ki, eyni ilə həm ön, həm də arxa cəbhənin səyi ilə qazanılırdı. Sovet insanlarının qəhrəmanlığı əfsanəyə çevrilmişdi. Ədiblər ən ağır və böyük sınaq illərini hərbi publisistikanın müxtəlif janrlarda yazılmış əsərlərində təsvir edirdilər.

Bir sıra hərbi publisistlərin əsərlərində pasifizm ideyaları təbliğ olunurdu. Onlar belə hesab edirdilər ki, təbiət insanı fani yaratmışdır, heç kəs əbədi deyil, lakin milyonlarla günahsız insanın işğalçı müharibələrdə həlak olmasını təbii və qanunauyğunluq sayılması cinayətkarlıq və insanlıqdankənar olardı. İstənilən müharibə, aparıcı hərbi jurnalistlərə görə, öz fəlakətli nəticələri ilə ən böyük şər, bəladır. Publisistin vəsifəsi – şərə, bəlaya çarə tapmaqdır.

E.Heminqueyin bioqrafı Karlos Beykerin qeyd etdiyi kimi, o, öz məqalə və oçerklərində, ağrı və acıyla "itirilmiş nəsillər" haqqında yazırdı. E.Heminquey, evindən didərgin düşmüş, öz doğmaları və yaxınları ilə əlaqələrini itirmiş nəsillərin faciəsini açıb göstərirdi. Yazıçının fikrinə görə, Amerikanın faciəsi məhz bunda idi.

Rus sovet ədəbiyyatı bu cür kəskin problemlə üzləşməmişdi. Lakin Simonovun hərbi publisistikasının əsas qayəsini məhz vətən mövzusu təşkil edirdi. Onun bir sıra oçerk, məqalə, yazışmalarında və qısa məlumat xülasələrində sovet insanlarının maddi dəstəkdən daha çox mənəvi dəstəyə ehtiyacları olduğu qeyd edilirdi. Hərbi

---

[5] Кашкин, И. Эрнест Хемингуэй // В книге: Э.Хемингуэй. Избранные произведения. В 2-х томах. – Москва: Художественная литература, – 1959. – Т. 1. – с. 3-38.

epizodların birbaşa iştirakçısı olmuş və ya (nadir hallarda) digər iştirakçıların xatirələrinin izi ilə yazan publisistin sözü faşizmə qarşı mübarizədə mənəvi silah rolunu oynayırdı.

XX əsrin birinci yarısında pasifizmə qarşı münasibət birmənalı deyildi. Avropa və Qərbdə yer alan humanizm və pasifizm ideoloji istiqaməti Sovet imperiyasında mümkünsüz idi. O dövrün ədəbiyyatı rəsmi, ciddi senzuralı idi və 1941-1945-ci illər müharibəsi başlamazdan əvvəl pasifizm qeyri-vətənpərvərlik hərəkatı kimi qiymətləndirilirdi. Müharibə qurtardıqdan sonra, sovet dövründə də həmçinin pasifizmə olan münasibət dəyişməz olaraq qaldı. Vətənin müdafiəsi müqəddəs borc, yəni vətəndaşın şərəfli işi hesab edilirdi, sülhsevər missiyalar da o qədər də xoş qarşılanmırdı.

Qərbdə isə pasifizmə münasibət bir qədər fərqli idi. Məsələn, A.Barbüs, R.Rollan, A.Eynşteyn, E.Sinkler, P.Lanjeven və başqaları özləri fəal pasifist olduqları halda, E.Heminqueyin müharibə əleyhinə olan yaradıcılığının, həmçinin onun yaxın silahdaşı Çarlz Fenton, o cümlədən Amerika yazıçısının çalışdığı "Kanzas-Siti-Star" qəzetinin redaktoru Teodor Brambek də Heminqueyin hərbi publisistikasının müdafiəsinə qalxmışdı. Publisist Skott Donaldson Hemiqueyin hərbi publisistikasındakı pasifizmi demək olar ki, onun bütün yaradıcılıq irsinin ən yüksək zirvəsi hesab edirdi[6].

E.Heminquey və onun yuxarıda adları qeyd olunan həmfikirlərinin erkən hərbi publisistikası bir qədər fərqli idi. Rus yazıçıları üçün mənəvi seçim problemi yox idi. Hər şey çox aydın idi: o tərəfdə düşmən var – və "bizim işimiz haqq işidir". Simonov "*Dirilər və ölülər" əsərində yazırdı: "Ən əsası – özümüzün ölməyi deyil; əsas odur ki, onlar ölsün*"[7].

Hərbi publisistikanın real həyatı daha geniş, əhatəli şəkildə əks etdirməsinə diqqət yetirmək vacibdir. Rus yazıçılarının əsərlərində sıravi insanların taleləri, mühüm döyüşlərin inkişafı, arxa cəbhədəki qəhrəmanlıq mübarizəsi, müttəfiqlərin fəaliyyəti,

---

[6] Donaldson, Scott. By Force of Will.The life and Art of Ernest Hemingway / Scott Donaldson. – London: TheViking Press, – 1977. – 242 p.
[7] Симонов, К.М. Живые и мёртвые / К.М.Симонов. – Москва, – 1971. – 38 с.

faşistlərin zülmü və s. diqqət mərkəzində idi. Hərbi publisistika qəhrəmanlıq səlnaməsi idi.

***"K.Simonov və E.Heminqueyin mülki və hərbi publisistikasının formalaşması və inkişaf mərhələləri"*** adlanan ikinci paraqrafda K.Simonov və E.Heminqueyin müharibədən əvvəl yaradıcılığına təsir göstərən müxtəlif amillərdən bəhs olunur. Şübhəsiz ki, yazıçıların jurnalist fəaliyyəti bu baxımdan əsas yer tutur. Jurnalistika onlar üçün ilk sənətkarlıq məktəbi idi.

K.Simonov 1941-1945-ci illər müharibəsində iştirak etmişdir və bu səbəbdən onun oçerk, məqalə, yazışmalar, qeydlər və ya reportajlarının böyük əksəriyyəti sırf hərbi mövzuda olan cəbhə xəbərləri və məlumatlardan ibarət idi. Amerika yazıçısı isə müxtəlif illərə aid publisistik çıxışlarının sayı baxımından daha "zəngin" tərcümeyi-hala malikdir. O, Birinci Dünya müharibəsinin fəal iştirakçısı olmuşdur. Lakin E.Heminquey yaradıcılığına daha erkən başlamışdır və müxtəlif məişət, tarixi, sosial-siyasi, beynəlmiləl mövzular haqqında yazmışdır. Yazıçı sadə insanların ağır taleyindən, möhtəkirlərdən, Kanzas-Sitidə çiçəklənən amerikalıların milli həyat tərzinin qəddarlığı, narkomanlar, cinayət aləmi, yerli polisin səriştəsizliyi və s. haqqında yazırdı ("Pamplona iyulda", "Vəhşi  Qərb: Çikaqo", "İdmanı sevən mer" və s.)[8].

Əlbəttə ki, hərbi yazışmaların və hərbi mövzuya aid məqalələlərin sayı daha çox idi. Lakin prinsip etibarilə bu hərbi məqalələri və yazışmaları yazıçının mülki dövrə aid yazıları və məqalələrindən ayırmaq mümkün deyildi. Çünki cəbhədən gələn məlumatları Heminquey digər yazılarla paralel olaraq nəşr etdirirdi. Artıq "Kanzas-Siti-Star" qəzetində çalışdığı dövrlərdə Heminquey könüllülər dəstəsinin tərkibində Avropada olmuş, Birinci Dünya müharibəsi cəbhələrində döyüşmüş, hərbi əməliyyatlarda Amerikanın Qırmızı Xaç Cəmiyyətində sürücü kimi iştirak etmiş, yaralanmış, mərdlik göstərdiyinə görə İtaliyanın iki medalı ilə təltif olunmuşdur. Hərbi jurnalist kimi o, müharibənin ən qaynar nöqtələrində olmuş, müharibənin bütün dəhşətini öz gözləri ilə görmüşdür.

---

[8] Грибанов, Б. Публицистика Эрнеста Хемингуэя // В кн.: Старый газетчик пишет… – Москва: Прогресс, – 1983. – с.59

E.Heminqueyin hərbi publisistikasını şərti olaraq bir neçə mərhələyə ayırmaq olar. Artıq yaradıcılıq yolunun ilk mərhələsində (1918-1922) o, hərbi dövrün nəbzini tutmağı öyrənmişdi. “Vəhşi Qərb: Çikaqo”, “Parisdə amerikalı bohema” və digər məqalələrində doğma xalqının çəkdiyi əzab və iztirabları yazıçı böyük məharətlə qələmə almışdır.

E.Heminqueyin hərbi publisistikasının növbəti mərhələsi (1922-1929) birinciyə nisbətən daha zəngindir. Bu dövrə aid əsərlərdə gənc publisist, ABŞ hökümətinin xəyanətinə məruz qalmış, Birinci Dünya müharibəsi veteranları haqqında yazır (“İnqilab və əksinqilab”, “Silahsızlanmanın taleyi”, “Hücumların mərkəzində mükafat almış kitab”, “Veteranlar əvvəlki döyüş yerlərinə gəlir”, “Səssiz xalq nümayişi”, “Frakiya ölkəsinin qaçqınları”, “Faşist diktatoru”, “Pamplona iyulda”). Bu dövrdə faşizmə nifrət mövzusu onun yaradıcılığının ana xəttini təşkil edirdi.

E.Heminqueyin hərbi publisistikasının formalaşması və inkişafının üçüncü mərhələsi 30-cu illərə təsadüf edir (1936-cı il İspaniyada Vətəndaş müharibəsindən əvvəl). Onun əsərlərinin artıq fərqli olduğunu müşahidə edirik. E.Heminquey bu qısamüddətli və aldadıcı sülh dövrünün nə qədər etibarsız olması haqqında yazmağı vacib hesab edirdi.

Yazıçının hərbi publisistikasının formalaşması və inkişafının dördüncü mərhələsi İspaniyada Vətəndaş müharibəsi illərini əhatə edir (1936-1939). E.Heminqueyin bu dövrdə yazdığı məqalə, oçerk, yazışma, reportajlar və qısa məktubları birmənalı olaraq hərbi, daha dəqiq desək, pasifist xarakteri daşıyırdı. Bu baxımdan həmin yazıların başlıqlarını misal gətirmək olar. Məsələn: “*Yazıçı və müharibə”, “İspan reportajı”, “İspan torpağı alov içində”, “Amerika döyüşçüləri”, “Yazıçının alman xalqına müraciəti”, “İspan xalqı mütləq qalib gələcək”, “Sonuncu komandir”, “İspaniya uğrunda qəhrəmancasına həlak olmuş amerikalılara həsr olunur” və başqaları. Bu məqalələrdə ispan xalqının mübarizəsi təsvir edilir və bu əsərlər pasifist ruhda yazılmış əsərlərdir*[9].

---

[9] Simonov, K. Heminquey yaradıcılığında ispan mövzusu // Heminquey E. Əcəl zəngi. – Bakı: Yazıçı, – 1986. – s.3-8.

Beşinci mərhələ – E.Heminqueyin hərbi publisistikasının əsas hissəsidir. Bu rus və amerikalı yazıçının hərbi publisistikasında əsas ideyaların, dünyagörüşünü, eləcə də yaradıcılıq istiqamətinin bütövlükdə üst-üstə düşdüyü yeganə dövrdür. Bu dövr nəşr olunmuş məqalə, oçerk, reportaj və yazışmaların sayının çoxluğuna görə də fərqlənir. Bu dövrdə janr müxtəlifliyi müşahidə olunur: qısa məlumat hesabatları, məktublar, birbaşa hərbi hadisə və əməliyyatlara əsaslanan teleqramlar.

K.Simonovun taleyi bir qədər fərqli idi. Rus yazıçısı hərbi jurnalist qismində əsasən İkinci Dünya müharibəsi cəbhələrində iştirak etmişdi. Lakin onun publisistik irsinin tədqiqi bizə yazıçının müharibədən əvvəlki dövrdə ədəbiyyat və incəsənət haqqında nəşr olunumuş yalnız iki məqaləsini üzə çıxarmağa kömək etdi: "Əsl başlanğıc" (1937) və "İnsan və xalq" (1938).

Qeyd etmək lazımdır ki, K.Simonovun müharibədən əvvəlki publisistikası məhz bu iki məqalədə öz əksini tapmışdır. Bu isə onun bütün sonrakı yaradıcılığını daha kəskin şəkildə formalaşmağına imkan yaradırdı. Bildiyimiz kimi, K.Simonov rus ədəbiyyatı tarixinə məhz hərbi jurnalist və yazıçı kimi əhəmiyyətli töhfə vermişdir. Mətbuatdakı çıxışlarının əksəriyyəti onun Moskvadan Berlinə qədər keçdiyi şərəfli döyüş yolunu əks etdirir. Onun bütün hərbi publisistikası – müharibə salnaməsi idi.

K.Simonovun hərbi publisistikasını şərti olaraq bir neçə mərhələyə bölmək olar. Birinci mərhələyə aid olan "Mühafizə bölməsi", "Rumıniya sahillərində", "Qırıcıların qırıcısı", "İyun-dekabr" və digər məqalə və oçerklərinin əsas mövzusu az itki verərək geri çəkilmək idi[10].

İkinci mərhələ 1942-ci ilə təsadüf edir. Bu dövr Simonovun iştirakçısı olduğu, Ukrayna, Belorusiya, Rostov vilayətləri və Rusiyanın digər bölgələrini bürüyən genişmiqyaslı partizan müharibələri ilə yadda qalmışdır. Yerli orqanlar tərəfindən idarə olunan genişmiqyaslı partizan hücumları bu dövrdə Simonov publisistikasının başlıca mövzusu idi. Onun oçerk və məqalələri də

---

[10] Симонов, К.М. Собрание сочинений в 10-ти томах. Дополнительный. Очерки и публицистика. Статьи и заметки о литературе и искусстве / К.М.Симонов. – Москва: Художественная литература, – 1946. Т. 11. – 432 с.

bu mözuda idi: “Kerçin daş karxanasında”, “Rus ürəyi”, “Əsgər şöhrəti”, “Gündüzlər və gecələr”, “Rus-faner”, “Dekabr qeydləri” və başqaları.

Üçüncü mərhələ – müharibədə dönüş nöqtəsinə yanaşma dövrüdür. Bu dövrə aid məqalələr və digər janrlarda yazılarda (“Qırx üçüncü ilin qışında”, “Mənim kimi et”, “Köhnə Smolensk yolunda” və başqaları) Simonov Avropanın yarısından çoxunu işğal etmiş hiyləgər və mənfur düşmənə qarşı sayıq olmağa çagırırdı.

1944-cü il Sovet ordusunun böyük qələbələri ilə yadda qaldı: bütün cəbhələr boyu geniş hücumlar, Leninqradın blokadadan çıxarılması, Avropa ərazilərinin müəyyən hissəsinin faşistlərdən azad edilməsi, hərbi düşərgələrin üzə çıxarılması və məhv edilməsi, texnikada həlledici üstünlüyün əldə olunması və s. Bu ili Simonovun hərbi publisistikasının formalaşma və inkişafının dördüncü mərhələsi adlandırmaq olar. “Çatdırılma ilə saxlanılmışdır”, “Ternopolun mühasirəsi”, “Məhvetmə düşərgəsi”, “Çavuş Yereşenko” və digər məqalələrin əsas mövzusu almanlar tərəfindən dağıdılmış kəndlərin azad edilməsidir.

K.Simonovun hərbi publisistikasının beşinci (sonuncu) mərhələsi xronologiya və mövzu baxımından E.Heminqueyin bu janra aid beşinci mərhələsi ilə uyğunluq təşkil edir. K.Simonovun publisistikasında konkretləşdirmələr daha çoxdur. Qeyd etməliyik ki, E.Heminquey 1941-1945-ci il illərin müharibə hadisələrinin daha çox müşahidəçisi qismində çıxış edirdi.

Birinci fəslin üçüncü paraqrafı ***“Publisistikada müəllifin və onun qəhrəmanlarının mövqeyi”*** adlanır. K.Simonov və E.Heminqueyin mətbuatdakı çıxışlarının özünəməxsusluğu bilavasitə müəllifin şəxsiyyətinin əks olunmasındadır. Lakin müəllif portretində zaman, həmçinin müvafiq mentalitet sözsüz ki, müəyyən iz buraxır. Bundan əlavə, nəzərə almaq lazımdır ki, onlar müxtəlif siyasi sistemlərin nümayəndələridilər.

Müxtəlif janrlarda yazılmış hərbi publisistik əsərlərində E.Heminquey, müharibənin bütün gerçəkliyi və dəhşətləri, ilk növbədə isə gördükləri və eşitdikləri haqqında yazırdı. K.Simonovda isə müəllif daha çox hər şeyi xüsusilə aydın şəkildə

göstərən hakim mövqeyindən çıxış edirdi. E.Heminquey, bir qayda olaraq, şəxsi mövqeyini bildirməkdən yan keçir, kimin haqlı, kimin günahkar olduğu haqqında danışmağa, ictimai fikrə təsir göstərməkdən uzaq idi. Lakin hərbi publisistikada müəllifin rolu və əhəmiyyəti məsələsində hər iki ədibin yaradıcılığını eyni xüsusiyyət birləşdirirdi: yazıçının "mən"i ön planda çəkilirdi. Onların hər biri qəhrəmanlarının əməllərini tərənnüm edərkən öz "qəhrəman-əsgər" obrazlarını yaradırdı.

K.Simonovun hərbi məqalə və oçerklərində ədəbi portretləri yaradan müəlliflə hadisəni danışan şəxs eynidir. Onun bəzi yazıları öz formasına görə dost məktublarını xatırladırdı, bəzən isə qəzet səhifələrində, hətta yazıçılar arasında "yazışmalar" başlayırdı. Öz qəhrəmanları ilə real tanışlıq faktları ilk növbədə Simonovun müəllif mövqeyini müəyyən edirdi: o, daha çox baş verən hadisələrin şahidi kimi çıxış edirdi. Lakin müəllif həm də həmsöhbət, personajların hərəkətlərini şərh edən və yaxud əsərlərin oxucusu da ola bilərdi.

Bilavasitə Simonovun verdiyi səciyyəvi xüsusiyyətlər müəllif və qəhrəmanın qarşılaşdıqları digər insanların səciyyəvi xüsusiyyətlərni tamamlayır. Üçüncü şəxslərin obrazları baş qəhrəmanın obrazının daha dolğun şəkildə üzə çıxarılmasına şərait yaradır (məs.: "Hərbi jurnalist").

Yaratdığı portretlərdə müəllif qəhrəmanının psixoloji vəziyyətini, onun daxili aləmini əks etdirməyə çalışır. Burada qəhrəmanın emosional duyğularının göstərilməsi onun davranışında baş verən dəyişikliklərin təsviri vasitəsi ilə əks etdirilir[11].

Mətndə hadisəni danışan müəlliflə qəhrəmanın dialoqları əhəmiyyətli yer tutur. Burada, əsasən qəhrəman danışır; müəllif replikaları isə məlumat funksiyasını yerinə yetirir, adətən, sual cümlələri ilə məhdudlaşır. Qəhrəmanın replikaları isə böyük məna yükünə malikdir. Hərbi publisistikada dialoq Heminqueyin də geniş istifadə etdiyi vasitədir.

---

[11] Симонов, К.М. Военный корреспондент // – Москва, Литература и искусство, – 1942. № 30, – 11 июля. – 16 с.

Bəşəriyyətin taleyinə məsuliyyət hissi Simonov kimi çox zaman oxucusuna öz sözünü qəhrəmanlarının dili ilə deyil, birbaşa çatdıran Heminqueyin də şüarıdır. Yazıçının həm bədii yaradıcılığı, həm də dövrü mətbuatdakı çıxışlarının xarakterini formalaşdıran müharibədən keçmiş təcrübəsi onun bütün dünyagörüşünü müəyyən etmişdi. Bu baxımdan E.Heminquey və K.Simonovun publisistikasında müəllif mövqeyi oxşardır. Lakin, eyni zamanda müəllif xəttinin öz fərdi xüsusiyyətləri də vardır.

İlk növbədə qeyd edək ki, E.Heminqueyin hərbi publisistikası avtobioqrafik xarakter daşıyır. O, demək olar ki, bütün oçerk, yazışma, məqalə, reportajlarında oxucuya birinci şəxsdən müraciət edir. "*Gələcək müharibə haqqında qeydlər" adlı məqalədə müəllif obrazı çox ibrətamizdir*[12]. O, burada müxtəlif nəslin nümayəndələrini – əbəs yerə müharibəyə qurban verilmiş gəncləri, faşist Almaniyasının çəkinmədən zor gücü ilə müharibəyə göndərdiyi qocaları təsvir edirdi. Burada E.Heminquey yer üzündəki beynəlxalq müharibələrin baş vermə səbəblərini sadalayır. Məqalədə bəzi hərbi mövzuda yazılmış əsərlərindən fərqli olaraq hadisəni danışan (təhkiyəçi) yoxdur. Müəllif öz şəxsi fikrini yürütməkdən çəkinir və heç kəsə etibar etmir.

E.Heminquey sətiraltı mənada gizlədilən müəllif düşüncələri adlandırıla biləcək maraqlı süjet xətti tapır. Gizli məna ilə üzə çıxan müəllif paralelliyi üsulunu yazıçı özü "aysberq prinsipi" adlandırmışdı. E.Heminquey hərbi publisistikada daha çox hadisələrin registratoru (qeydə alan) kimi iştirak edir. O yalnız deyil, açıq-aşkar öz fikirlərini ifadə etmir, müşahidəçiyə çevrilir, bununla yanaşı, sadə əsgərlər və ya tanış generallardan biri ilə dialoqa girir.

*Birinci fəslin əsas müddəa və materialları müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır.*[13]

---

[12] Литература антифашистского сопротивления в странах Европы 1939-1945 / – Москва: Художественная литература, – 1972. – 404 с.

[13] E.Heminqueyin publisistikasında müharibə mövzusu // – Bakı, Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2015. № 4, – s. 154-159.; E.Heminqueyin erkən ədəbi-tənqidi publisistikası // – Bakı: Bakı Universitetinin xəbərləri, humanitar elmlər siyahısı, – 2018. № 1, – s. 198-203.; K.Simonovun publisistikasında müəllifin və onun qəhrəmanının

İkinci fəsil **“Pasifist ideyaların K.Simonov və E.Heminquey yaradıcılığına təsiri”** iki paraqrafdan ibarətdir.

***“Pasifizm və ədəbiyyat”*** adlanan birinci paraqrafında qeyd olunur ki, XX əsrin ədəbi prosesində ikinci dünya müharibəsi dövrü dünya tarixində xüsusi dövr idi, ədəbiyyata müharibə mövzusu hakim kəsilmişdi. Ədəbiyyatın istənilən janr formalarında (publisistika, nəsr, poeziya) müharibə ölümlə əlaqələndirildiyi üçün təbii ki, o, pasifist ideyalarının nümayişində öz əksini tapmalı idi.

SSRİ-nin təşkili dövründə (1922-ci il) bir çox ədəbi tənqidçilər, kulturoloqlar, sənətşünaslar və maarifçilər vətənpərvərlik və pasifizm anlayışlarını eyni səciyələndirmirdilər. Eyni zamanda, keçmiş İttifaqın nəzəri əsərlərində bu anlayışlar bir-birinə zidd göstərilirdi. SSRİ-də pasifizmə qeyri-vətənpərvər istiqamət kimi münasibət birmənalı deyildi. Məhz bu səbəbdən tənqidi ədəbiyyat V.Bıkovu, Y.Bondarevi, A.Tvardovskini, K.Simonovu və başqa rus şair və yazıçılarını təbliğatçı, Heminqueyi və onun bir sıra həmfikirlərini “sənədlərə işləyənlər dəstəsi” adlandırırdı. Simonovun publisistik istiqamətini ümumiləşdirərək çox zaman onu vətənpərvər, onun amerikalı həmkarını isə daha çox pasifist yazıçı adlandırırdılar.

Lakin buna baxmayaraq, hərbi vətənpərvər ədəbiyyat pasifizmlə sıx bağlı idi. Məsələn, Böyük Vətən müharibəsi illərində Simonovdan başqa digər pasifist yazıçılar da “Pravda” və “Krasnaya zvezda” qəzetləri ilə fəal əməkdaşlıq edirdilər. Onlar A.Fadeyev, B.Polevoy, L.Sobolev, İ.Erenburq, A.Tvardovski, V.Qrossman, P.Pavlenko, V.Kojevnikov, Y.Petrov, O.Berqols, V.Vişnevski, A.Kron və başqaları idi. Aparıcı tənqidçilər onların əsərlərində anti-hərbi motivlərin mühüm yer tutduğunu inkar etmirdilər. Birinci Dünya müharibəsi illərində birmənalı olaraq M.Qorkini pasifist yazıçı adlandırırdılar[14].

---

mövqeyinin ifadə vasitələri // – Bakı: Azərbaycan Dillər Universiteti, Dil və ədəbiyyat, – 2018. № 3-4, – s. 115-117.; E.Heminqueyin hərbi publisistikasında müəllif və qəhrəman problemi // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, – 2019. № 3(107), – s. 335-337.; Hərbi jurnalistika və yazıçılar // – Bakı: BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2022. №2, – s. 143-147.

[14] Лебедева, М. Русская советская литература периода Великой

XX əsrdə Qərbdə pasifizm ideyaları eyni zamanda cəmiyyətin ziyalı təbəqəsinə təsir etməyə bilməzdi. Onlar real olaraq bədii ədəbiyyatda öz əksini tapmış, bir sıra şair və yazıçıların yaradıcılığına, həmçinin publisistikaya öz təsirini göstərmişdir. Anti-hərbi əhval-ruhiyyə A.Barbüsün, R.Rollanın, E.Sinklerin, P.Lanjevenin və başqalarının əsərlərinin süjet xəttini təşkil edirdi. E.Heminquey də tarixdə məhz anti-hərbi yazıçı, faşizmin qəddar və prinsipial düşməni kimi yadda qalmışdır.

Həmin dövrün pasifist ideyalarını özündə birləşdirən dünya ədəbiyyatı müharibəyə açıq şəkildə şəxsi münasibəti ifadə edən hisləri tərənnüm edir. E.Heminquey İspaniyadakı hadisələrə laqeyd qala bilməmişdi. Onun bu dövrə aid olan “Beşinci kolon” və “Əcəl zəngi” romanları faşist işğalçılarına qarşı qəzəblə doludur. Lakin bu dövrün parlaq publisistikası da əhəmiyyətli idi. “Ernest Heminqueyin bədii publisistikası” adlı monumental nəşrdə “İspan dövrü” xüsusi əhəmiyyət kəsb edir. Məcmuəyə 1936-1939-cu illərdə yazılmış 12 məqalə daxildir. Onların arasında əsas məqalə və oçerkləri qeyd edək: “Yazıçı və müharibə”, “İspan reportajı”, “İspan torpağı”, “Amerikalı döyüşçü”, “Madrid sürücüləri”, “Bütün cəsurlar” və s.

Fikrimizcə, pasifizm ideyalarının Qərb ədəbiyyatında E.Heminquey publisistikasına təsiri özünəməxsus xarakter daşıyır. Məsələn, “Yazıçı və müharibə” adlı oçerkində o, konkret müharibəyə qarşı deyil, kütləvi xarakterli, ümumi müharibənin qarşısının alınması üçün çağırışların zəruri olduğunu hesab edir. Heminquey bu oçerkdə ölkələri faşistlərin hücumundan vaxtında qorunmağı təklif edir. Bu planın həyata keçirilməsində mühüm addım kimi o, pasifizm ideyalarının təbliğini irəli sürür.

K.Simonovun hərbi publisistikasında konkret olaraq pasifizm ideyalarını əsas ideyalar kimi qeyd etmək çətindir, çünki bu ideyalar demək olar ki, onun hər bir qəzet məqaləsində öz əksini tapırdı. Bunun səbəbi o idi ki, cəbhə oçerki bu və ya digər formada əsgərlərin və hərbi hissə komandirlərinin gündəlik şücaəti ilə bağlı

---

Отечественной войны / М.Лебедева. – Москва: Художественная литература, – 1989. – 388 с.

idi. Əslində, gündəlik hərbiçi həyatı, vətənpərvərlik və qəhrəmanlıq bir-biri ilə ayrılmaz anlayışlardır.

K.Simonovun 1941-1945-ci illərdəki əksər məqalə və oçerklərində – "Əsgər ürəyi", "Gündüzlər və gecələr", "Qütb gecəsində", "Mühasirəyə alınmış Odessada", "Krımdan məktub", "Norveç qayalarında", "Kerçenin daş karxanalarında", "Rumıniya sahillərində", "Don düzlərində", "Tarnopoldan iki məktub", "Gündüzlər və gecələr", "Köhnə Smolensk yolunda", "Kareliya boynunda", "Qırx üçüncü ilin qışında...", "Yüksək Tatralarda", "Torpağım mənim!" və s.pasifist ideyaları aydın şəkildə təsvir olunur.

***"K.Simonov və E.Heminqueyin hərbi publisistikasında pasifist ideyaların təcəssümünün oxşar və fərqli cəhətləri"*** adlanan ikinci paraqrafda qeyd edilir ki, birbaşa hərbi dövrdə vicdanlı, istedadlı və insanların taleyinə məsuliyyətlə yanaşan publisist, hər şeydən əvvəl müasir vəziyyəti daha dürüst əks etdirməlidir. Publisist K.Simonov üçün "vətənpərvərlik" həmişə və hər yerdə, hətta ideoloji göstərişlərə rəğmən digər anlayışları üstələyərək ön sıralarda dururdu. Lakin E.Heminqueyin hərbi publisistikasında vətənpərvərlik və pasifizm anlayışları bir-biri ilə sıx bağlı idilər. Əslində onlar anti-hərbi siyasi hərəkatın müxtəlif, lakin eyni zamanda istər regional və milli, istərsə də qlobal miqyasda silahlı zorakılığa qarşı mübarizədə birləşmiş sosial qüvvələrə təsiri haqqında müəllifin ideyasını ifadə edirdilər.

Pasifizm mürəkkəb və qeyri-adi anlayışdır. Onun əsas təyinatı yer üzündə sülhməramlı missiyası ilə yanaşı, eyni zamanda insanların həyata meylini, bağlılığını da əks etdirir. Dünya pasifist hərəkatının vacib şüarlarından biri – ölümə qarşı həyatdır. K.Simonovun fikrincə, yazıçı-publisistlər müharibəni yalnız sırf pasifist mövqedən göstərməli deyillər. Müharibədə insanlar yenə də yaşamağa, çalışmağa, sevməyə, uğurla başa vurulmuş hər günə sevinməyə davam edirlər – bu həqiqət vətənpərvər və pasifist yazıçı üçün yeni məna kəsb edirdi[15].

---

[15] Пуйманова, М. Жизнь против смерти / М.Пуйманова. – Москва: Просвещение, – 1954. – 49 с.

K.Simonov və E.Heminqueyin publisistikasında pasifist ideyaların oxşar və fərqli cəhətlərinin ümumi tədqiqi aspektində maraq doğuran məqam ondan ibarətdir ki, rus yazıçısı üçün iki müharibəni müqayisə etməyə heç bir ehtiyac yox idi. Bu mənasız olardı, çünki K.Simonov Birinci dünya müharibəsində iştirak etməyib. Onun həcmcə böyük publisistikasının təhlili zamanı biz demək olar ki, rus yazıçısının 1914-1918-ci illərin hadisələrinə müraciətini aşkar etmədik. E.Heminquey üçün isə bu müqayisə çox əhəmiyyətli idi.

Müharibə haqqında yalnız həqiqəti söyləmək – həm K.Simonov, həm də E.Heminqueyin şüarı idi. Rus yazıçısı öz publisistikasında müharibə haqqında həqiqəti deməkdən heç zaman qorxmurdu. Lakin E.Heminquey bəzi hallarda təmkinli idi. O, güman edirdi ki, bəzən həqiqəti söyləmək qorxulu və təhlükəlidir. "Yazıçı və müharibə" adlı məqaləsində E.Heminquey ehtiyat edir: "*Müharibə haqqında yaxşı və doğru olanı yazmaq çətindir. Müharibə haqqında həqiqəti yazmaq isə həqiqəti araşdırmaq qədər çox təhlükəlidir. Həmin bu həqiqəti tapmaq üçün özünü təhlükəyə atmağa dəyərdimi? Qoy bu haqda başqa yazıçılar mühakimə yürütsünlər*"[16].

Hər iki yazıçı faşist ideologiyasının amansız tənqidi ilə pasifist ideyalarının toqquşduğu kütləvi çıxışlara çox böyük əhəmiyyət verirdi. K.Simonov və Heminquey öz kütləvi çıxışlarında, sözsüz ki, geniş oxucu auditoriyasına yönəlmişdilər, bu isə ədəbi-tənqidi publisistikanın əsas xüsusiyyətlərindən birini – onun sadəliyini, əlçatanlığını müəyyən edirdi.

Əlbəttə, o tarixi şəraitin şərtləri altında yaradılan ədəbi əsərləri və ya onlara yazılan rəyləri nəzərdən qaçırmaq düzgün olmazdı. Lakin bu faktı mütləqləşdirmək də olmaz. Bu baxımdan K.Simonovun müharibədən uzun illər keçdikdən sonra söylədiyi fikir xoş təsir oyadır: "*Bu və ya digər əsərlərin yazıldığı zamanla ayaqlaşmamaq mümkün deyil, lakin hər şeyi zamanın üstünə atmaq*

[16] Хемингуэй, Э. Старый газетчик пишет… / Э.Хемингуэй. – Москва: Прогресс, – 1983. – с.103.

*da olmaz*”[17]. Müharibə zamanı sovet bədii ədəbiyyatından, o cümlədən, K.Simonovun publisistikasından, ilk növbədə vətənpərvərliyi təcəssüm edən əsərlər (məqalə, oçerk, yazışmalar və s.) gözləyirdilər. Lakin çox zaman bilavasitə döyüş əməliyyatlarından uzaq Qərbin söz ustalarından, o cümlədən, E.Heminqueydən bu cür əhval-ruhiyyə yaratmaq tələb olunmurdu.

E.Heminquey 1941-1945-ci illər müharibəsi dövrünün çox hissəsini Kubada və ya Latın Amerikasının qarışıq ərazilərində olmuşdu. Ondan vicdanlı və tələbkar yazıçı kimi, əsasən ümumi cəbhənin qiymətləndirilməsi tələb olunurdu. E.Heminqueyin Amerika üçün nisbətən neytral mövzu olan pasifizmə daha böyük əhəmiyyət verməsi də məhz bundan irəli gəlirdi. K.Simonov üçün döyüş meydanlarında vətənpərvərliyin təsvir edilməsi vətəndaşlıq borcu idi; E.Heminquey üçün isə bu, daha çox şərəf və şəxsi vicdan işi idi, onun yazışmaları və kütləvi çıxışları yalnız vətənində deyil, eyni zamanda faşizmin məhv olmasını arzu edən bütün mütərəqqi dünyada pasifizm əks-sədası ilə səslənirdi. K.Simonov faşizmə olan nifrətin mənbəyini məhz vətənpərvərlikdə görürdü.

*İkinci fəslin əsas müddəaları və materialları müəllifin aşağıdakı əsərlərində təqdim olunur.*[18]

---

[17] Симонов, К.М. В одной газете / К.М.Симонов, И.Эренбург. – Москва: Агентства печати. Новости, – 1984. – 323 с.

[18] Пацифистские идеи в публицистике К.Симонова / – Одеса, Науковий вісник Міжнародного гуманітарного університету, серія: Філологія, – 2017. № 29, – с. 38-41; K.Simonov və E.Heminqueyin yaradıcılığında vətənpərvərlik və pasifizm kateqoriyaları // – Bakı: AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2019. № 1, – s. 292-297.; Патриотизм и пацифизм как две мировоззренческие позиции военной публицистики. (На материале статей и К.Симонова и Э.Хеминугэя) // Наука и инновации – современные концепции. Сборник научных статей по итогам работы Международного научного форума, – Москва, – 2021. – с. 104-113.; Pasifizm və ədəbiyyat // The XXVIII International Scientific Symposium “Karabakh is My Native Land”, dedicated to the 190 anniversary of Khurshidbanu Natavan. – Holland, Amsterdam, – 30 iyun, – 2022, – s. 61-64.; Разночтения в понятии патриотизма и пацифизма в военной публицистике К.Симонова и Э.Хумингуея // Язык. Культура. Перевод: межкультурная коммуникация в эпоху цифровых технологий: материалы Международной научно-практической конференции. Приднестровский государственный университет им. Т.Г.Шевченко, – Тирасполь, – 2025, – с. 56-61.

Üçüncü fəsil **“K.Simonov, E.Heminquey və Azərbaycan yazıçılarının hərbi publisistikasının səciyyəvi xüsusiyyətləri”** adlanır və öz növbəsində iki paraqrafa bölünür.

***“Müharibə mövzusu, onun Azərbaycan yazıçılarının publisistikasında əks olunması”*** adlanan birinci paraqrafda qeyd olunur ki, Azərbaycanın görkəmli şair və yazıçıları S.Vurğun, M.İbrahimov, R.Rza, M.S.Ordubadi kimi söz ustaları qarşısında həqiqətən də tarixi əhəmiyyətə malik vəzifə dururdu: yəni, onlar parlaq və aydın şəkildə (oçerklər, yol qeydləri, xatirələr, məqalələr, yazışmalar, müsahibələr və s.) müharibənin özü ilə gətirdiyi fəlakət və dəhşətləri əks etdirməli idilər[19]. Azərbaycan publisistikasında ümumiləşdirilmiş qəhrəman xalq obrazının yaranmasını müşahidə edirik. Yazıçıların əsərlərində həm pasifist ideyalar, həm də dözümlülük, qəhrəmanlıq xüsusiyyətləri təsvir olunurdu.

Qeyd etmək lazımdır ki, bizim yazıçı-nasirlərin publisistik çıxışlarının coğrafiyası çox geniş idi. M.Hüseyn öz xatirələrində və yol qeydlərində Moskva müdafiəçilərinin 1941-ci ilin payız-qış aylarında qəhrəman fədakarlıqları haqqında yazır. M.İbrahimov oxucuları vətənin artıq tamamilə başqa bir diyarının – Uzaq Şərq cəbhəsinin qəhrəmanları ilə tanış edir. R.Rza və Ə.Məmmədxanlı Azərbaycan əsgərləri ilə bir sırada Krım istiqamətində döyüşənlər haqqında danışırlar və s.

Böyük Vətən müharibəsi illərində S.Vurğunun mətbuatdakı publisistik çıxışları populyar idi. Yazıçı məqalələrində xüsusilə, Məzahir Abbasov, Kamal Qasımov kimi qəhrəmanların hərbi şücaəti haqqında yazırdı. Müharibə başlayandan artıq bir ay sonra, daha dəqiq desək, 1941-ci ilin iyulunda, “Ədəbiyyat və incəsənət” qəzetində “Faşizm və ziyalılar” adlı məqaləsini nəşr etdirir[20]. Burada S.Vurğun faşist ideologiyasını qəbiristanlıq sevən bayquşla müqayisə edir, faşizmi “ölüm toxumu səpən böyük faciə” adlandırır.

S.Vurğunun yaradıcı irsində müharibə mövzusuna aid məqalələr üstünlük təşkil edirdi. Bunlar: “Faşizm və ziyalılar”

---

[19] Aşırlı, A. Azərbaycan mətbuatı tarixi (1920-1990) / A.Aşırlı. – Bakı: Elm və təhsil, –2010. – 132 s.

[20] Vurğun, S. Faşizm və intellegensiya // Ədəbiyyat və incəsənət, – 1941, 4 iyul.

(1941), “Tərəqqi bayrağı altında” (1948), “Sülhün keşiyində” (1950), “Sülh – bunu bütün sovet insanları tələb edir” (1951). Burada göstərilən konkret tarixi simalar xalqını və vətənini təmənnasız sevirlər. Eyni zamanda onlar həmdə digər xalqların, daha doğrusu bütün bəşəriyyətin taleyinə biganə qalmayan döyüşçülərdir. “*Sülh – bunu bütün sovet insanları tələb edir” məqaləsində S.Vurğun “həm müharibə, həm də sülh dövründə, parlaq ümumbəşəri ideyaları incəsənətdə olan bütün anti humanist istiqamətlərə qarşı qoyur*”[21]. Görkəmli rus şairi N.Tixonov S.Vurğunu bütün dünyanı fəal şəkildə sülhə çağıran publisist-pasifist adlandırmışdır.

Digər görkəmli Azərbaycan yazıçısı Mirzə İbrahimovun publisistikasına nəzər salanda görürük ki, yazıçının çoxsaylı məqalələri müxtəlif mövzulara həsr olunmuşdur. Burada müəllifin tarixi baxışları öz əksini tapmışdır. Onlar əsasən təkcə müasirlərin deyil, həm də gələcək nəsillərin nəinki SSRİ-də, həm də bütün dünyada faşizm fəlsəfəsinin mahiyyətini dərk etməsi ilə ifadə olunur.

Bu baxımdan onun “*... Torpağın istisi ilə nəfəs alıram*” adlı məqaləsi qəddar, qara qüvvələrin yaratmış pozğun ictimai quruluş, böyük insan kütlələrinin şüurunu insana nifrət hissi, irqçilik, dünyaya hakim olmaq ideyaları ilə zəhərləyən faşizmin tam iflasa uğramasına həsr olunmuşdur.

“Həyatımın kitabı” silsiləsinin “Unudulmaz görüşlər” adlı bölümü xüsusilə maraq kəsb edir. Bu hissə, səkkiz məqalədən ibarətdir, onların bəziləri hərbi publisistika nümunəsidir. “Yolda düşüncələr” adlı məqalədə “yol” xronotop simvoluna rast gəlinir[22].

S.Vurğun və M.İbrahimovun publisistikası ilə yanaşı, M.S.Ordubadinin hərbi mövzuda yazılmış məqalələrini də qeyd etmək lazımdır. O, sovet döyüşçülərini, habelə azərbaycanlıları son damla qanına qədər zalım faşistlərə qarşı mübarizəyə çağıran bir

---

[21]Вургун, С. Права поэта // В кн.: Самед Вургун. Собрание сочинений в трёх томах. Т.3. Пьесы. Статьи. Выступления. Автобиография. 1937-1956. – Москва: Художественная литература, – 1980. Т 3. – с. 272-280.

[22] Ибрагимов, М. …Теплом земли дышу // В кн.: Ибрагимов М. Собрание сочинений в шести томах. Литературно-художественные очерки. Путевые заметки. – Москва: Художественная литература, – 1988. Т.6. – с. 15-21.

sıra məqalələr yazmışdı. Bundan əlavə, pasifist yazıçı hər zaman yadelli işğalçılara qarşı mübarizədə Azərbaycan xalqının misli görünməyən şücaətini unutmamağa çağırırdı.

İkinci paraqraf ***"K.Simonov, E.Heminquey və Azərbaycan yazıçılarının hərbi publisistikasının müqayisəli təhlili"*** adlanır. Burada vurğulanır ki, K.Simonovun və sadalanan azərbaycanlı ədiblərin hərbi publisistikalarından fərqli olaraq, E.Heminqueyin müharibədə həqiqətə qarşı münasibəti ikili idi: yazıçı müəyyən mənada ondan qaçırdı. Məsələn, "Yazıçı və müharibə" məqaləsində o, həqiqətlər barədə yazmağın təhlükəli olduğunu qeyd edirdi. Lakin eyni zamanda, yazıçı hərbi yazıçı-publisistin vəzifəsini müharibə haqqında doğruları yazmaqda görürdü.

Bir sıra Azərbaycan pasifist yazıçıları öz hərbi publisistikasında müharibədə faşizm üzərində qələbəni diaxronik kəsikdə, yəni müəllifin tarixə müraciəti vasitəsilə göstərməyə cəhd etmişlər. "Tarix və qələbə" məqaləsində M.S.Ordubadi müxtəlif dövrlərdə yaşamış tarixin əsl qəhrəmanlarına müraciət edərək sovet xalqının vətənpərvərlik ruhunu yüksəltməyə çalışırdı. Azərbaycan yazıçılarının yuxarıda sadalanan bütün məqalə və oçerklərində xalqımızın qəhrəman keçmişinə birbaşa istinad vardır. Bu üsul nə K.Simonov, nə də E.Heminqueyin məqalə və oçerklərində müşahidə olunmur.

Görkəmli Azərbaycan ədibi Rəsul Rzanın hərbi publisistikası özünəməxsusluğu ilə seçilir. XX əsr Azərbaycan xalqının tarixində bütün əhəmiyyətli hadisələr bu və ya digər dərəcədə R.Rzanın bədii əsərlərində və hərbi publisistikasında öz əksini tapmışdır. Onun şeirlərində və məqalələrində müxtəlif millətlərdən olan əsgərlərin eyni zamanda qəzəbi, nifrəti və humanizmi tərənnüm edilir. Bu əsərlərdə sadə əsgərlərin çiyinlərində necə ağır silah daşımaları, yaş səngərlərdə yuxulamaları, düşmən artilleriyası alovunun içindən özlərinə necə yol açdıqları təsvir olunur[23].

Bütün bunlar E.Heminqueyin hərbi məqalə və yazışmalarının üslub və metoduna çox bənzəyir. Məsələn, "Qvadalaxar cəbhəsi" ispan reportajında hadisələrin eyni xronikasını müşahidə edirik.

---

[23] Азербайджанская литература периода Великой Отечественной войны / – Баку: Язычы, – 1965. – 127 с.

Eyni mənzərəni amerikalı jurnalist "Kintanilyanın müdafiəsi uğrunda", "Floridada müharibə veteranlarını kim öldürdü?", "İspaniya torpağı", "Amerika döyüşçüsü" və başqa məqalələrində təsvir edir. Həmin üsuldan K.Simonov da istifadə etmişdir.

K.Simonov və E.Heminqueyin hərbi publisistikasının strukturu fərqli xarakter daşıyırdı. Hər iki yazıçının demək olar ki, hər məqaləsində ədəbi qəhrəmanlara və real (tarixi) şəxsiyyətlərə rast gəlinir. Yazıların əksəriyyətində müəlliflər onlarla qiyabi dialoq qurur, tamamilə bərabər hüquqlu əsaslarla hərbi strategiya məsələləri haqqında müzakirələr aparırlar.

Azərbaycan publisistikasında diqqət daha çox fəlsəfi xarakterli problemlərə yetirilir. Məsələn, "qəhrəmanlığın mənşəyi nədən ibarətdir?", "müharibə insanlara nələri öyrətdi?", "vətəndaşlıq borcunu yerinə yetirməyi düzgün necə başa düşmək olar?", "hərbi müxbirin məsuliyyət və ya səhvlərinin nəticəsi necə olacaq?" və s. kimi suallar daha tez-tez vurğulanırdı.

Janr fərqləri haqqında məsələləyə də toxunaraq qeyd etməliyik ki, İkinci dünya müharibəsi ərəfəsində rus və Qərb ədəbiyyatında oçerk janrının nəzəriyyəsi artıq işlənmişdir və bu janr kifayət qədər əsaslı şəkildə publisistlərin yazılarında təqdim olunmuşdur. Məsələn, E.Heminqueyin "Köhnə qəzetçi yazır..." kitabında döyüş meydanlarından olan reportajlar çox azdır. Bu kitabda əsasən yazıçının oçerkləri verilmişdir.

Azərbaycan publisistikasında vəziyyət başqa idi. B.Nəbiyev hesab edir ki, Azərbaycan ədəbiyyatında oçerk gənc janrlardandır[24]. Məhz İkinci dünya müharibəsi, onun fikrincə, bu janrın inkişafına xüsusi təkan verdi. Bu oçerklər respublikanın igid oğullarının adlarını əbədiləşdirmək məqsədi daşıyırdı. Bu məqsədlə mətbuatda M.S.Ordubadinin faşizmə nifrət dolu məqalələri, Şirvanın "Kamal", C.Cəfərovun "Snayper İlyas", A.Sadıqın "Polkovnik Zeynalov", Mir Cəlal Paşayevin "Həzi Aslanov" və bir çox başqalarının yazıları dərc olunmuşdur.

---

[24] Nəbiyev, B. Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı / B.Nəbiyev. – Bakı: Elm, – 1977. – 328 s.

*Üçüncü fəslin əsas müddəaları və materialları müəllifin aşağıdakı əsərlərində təqdim olunur.*[25]

Beləliklə, aparılan dissertasiya tədqiqatı bəzi **nəticələr** çıxarmağa və ümumiləşdirmələr etməyə imkan verdi:

Tədqiqat zamanı ilk növbədə bütövlükdə XX əsrdə pasifizmə olan münasibətin birmənalı olmadığı müəyyən edilmişdir. Ümumilikdə rus hərbi nəsr və publisistikasında pasifizm sülh tərəfdarı olan kütləvi hərəkat kimi ənənəvi olaraq vətənpərvərliyə qarşı qoyulmuşdu. Lakin tədqiqat göstərdi ki, K.Simonovun hərbi publisistikasında bu anlayışlar müxtəlif tərəflərə ayrılmamışdı.

Həmçinin görkəmli Amerika yazıçıları, o cümlədən, E.Heminquey də müharibə əleyhinə olan ideyaların təsirini özlərində hiss etmişdilər.

Müharibə dövründə publisistikada vətənin onlar üçün hər şeydən üstün olduğunu nümayiş etdirən qəhrəman obrazlar əks olunurdu. K.Simonov öz qəhrəmanını çətin vəziyyətlərdə göstərir, onu vicdanı, qorxusu ilə sınağa çəkir, bununla da onun döyüş əzmini və sarsılmazlığını nümayiş etdirir. E.Heminqueyin yaradıcılığında isə daha çox pasifist ideyalar üstünlük təşkil edir. Lakin bəzi məqalə, oçerk, reportajlarında və kütləvi çıxışlarında vətənpərvərlik də Amerika əsgərlərinin dayanıqlı və sınanmış xüsusiyyətinə çevrilir. Bu baxımdan, müharibə illərində rus və Amerika yazıçılarını vahid məqsəd – bir tərəfdən düşmənə dərin nifrət hissi bəsləyən dözümlü və cəsur qəhrəman obrazları, digər tərəfdən sülhsevər, xeyirxah, faşizmə qalib gələn və bir daha yer üzündə yeni müharibələrin olması ilə barışmayan insan obrazları yaratmaq istəyi birləşdirirdi.

---

[25] Müharibə illərinin publisistikası // Ulu öndərin anadan olmasına həsr olunmuş "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" mövzusunda Beynəlxalq elmi konfrans, – Bakı, Bakı Slavyan Universiteti, – 3-5 may, – 2016. 2-ci hissə, – s. 233-235.; Böyük Vətən müharibəsi illəri publisistikasının əsas xüsusiyyətləri // – Bakı: Pedaqoji Universitetin xəbərləri, Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2018. № 2, – s. 82-87.; Müharibə mövzusunun azərbaycanlı şair və yazıçıların publisistikasında əks olunması // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "İnsan inkişafı. Dünyaya inteqrasiya" mövzusunda II Beynəlxalq elmi konfrans, – Bakı, AzMİU, – 2019. – s. 241-245.

Vətəndaşlıq borcu mövzusu K.Simonov, E.Heminquey və Azərbaycan yazıçılarının pasifist ideyaları ilə bağlıdır. Onların hər biri, antifaşist mövqeyindən çıxış edirdilər və inanırdılar ki, sıravi döyüşçülərin, ali hərbi komandanlığın vətəndaşlıq borcu bütövlükdə faşist ideoloji sisteminin məhv edilməsindən ibarətdir.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı əsərlərində əks olunmuşdur:**


1. E.Heminqueyin publisistikasında müharibə mövzusu // – Bakı: Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2015. № 4, – s. 154-159.
2. Müharibə illərinin publisistikası // Ulu öndərin anadan olmasına həsr olunmuş "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" mövzusunda Beynəlxalq elmi konfrans, – Bakı, Bakı Slavyan Universiteti, – 3-5 may, – 2016. 2-ci hissə, – s. 233-235.
3. Пацифистские идеи в публицистике К.Симонова / – Одеса: Науковий вісник Міжнародного гуманітарного університету, серія: Філологія, – 2017. № 29, – с. 38-41
4. E.Heminqueyin erkən ədəbi-tənqidi publisistikası // – Bakı: Bakı Universitetinin xəbərləri, humanitar elmlər siyahısı, – 2018. № 1, – s. 198-203.
5. Böyük Vətən müharibəsi illəri publisistikasının əsas xüsusiyyətləri // – Bakı: Pedaqoji Universitetin xəbərləri, Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2018. № 2, – s. 82-87.
6. K.Simonovun publisistikasında müəllifin və onun qəhrəmanının mövqeyinin ifadə vasitələri // – Bakı: Azərbaycan Dillər Universiteti, Dil və ədəbiyyat, – 2018. № 3-4, – s. 115-117.
7. K.Simonov və E.Heminqueyin yaradıcılığında vətənpərvərlik və pasifizm kateqoriyaları // – Bakı: AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2019. № 1, – s. 292-297.
8. E.Heminqueyin hərbi publisistikasında müəllif və qəhrəman problemi // – Bakı: Bakı Dövlət Universiteti, Dil və

ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, – 2019. № 3(107), – s. 335-337.

9. Müharibə mövzusunun azərbaycanlı şair və yazıçıların publisistikasında əks olunması // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "İnsan inkişafı. Dünyaya inteqrasiya" mövzusunda II Beynəlxalq elmi konfrans, – Bakı, AzMİU, – 2019. – s. 241-245.
10. Патриотизм и пацифизм как две мировоззренческие позиции военной публицистики. (На материале статей и К.Симонова и Э.Хеминугэя) // Наука и инновации – современные концепции. Сборник научных статей по итогам работы Международного научного форума, – Москва, – 2021. – с. 104-113.
11. Hərbi jurnalistika və yazıçılar // – Bakı: BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2022. №2, – s. 143-147.
12. Pasifizm və ədəbiyyat // The XXVIII International Scientific Symposium "Karabakh is My Native Land", dedicated to the 190 anniversary of Khurshidbanu Natavan. – Holland, Amsterdam, – 30 iyun, – 2022, – s. 61-64.
13. Разночтения в понятии патриотизма и пацифизма в военной публицистике К.Симонова и Э.Хумингуея // Язык. Культура. Перевод: межкультурная коммуникация в эпоху цифровых технологий: материалы Международной научно-практической конференции. Приднестровский государственный университет им. Т.Г.Шевченко, – Тирасполь, – 2025, – с. 56-61.

Dissertasiyanın müdafiəsi 16 iyun 2026-cı il tarixində saat 16.00 Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Slavyan Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.13 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəh. S.Rüstəm 33.

Dissertasiya ilə Bakı Slavyan Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Bakı Slavyan Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 13 may 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 08.05.2026

Kağızın formatı: A5

Həcm: 40202 işarə

Tiraj: 100